**Bu gün milli mətbuatımız zəngin irsə, təcrübəyə və güclü peşəkar potensiala malikdir. 150 illik bu yol, sözün və fikrin gücü ilə cəmiyyətin inkişafına, maariflənməsinə və milli kimliyimizin qorunmasına mühüm töhfələr vermişdir. Bu tarix Azərbaycanda ilk nəşr orqanı olan "Əkinçi" qəzetinin dərc olunmağa başladığı gündən hesablanır. 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi kimi tarixə düşmüşdür. "Əkinçi"nin 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 sayı işıq üzü görsə də, onun Azərbaycan milli mətbuatının təşəkkül tapmasında, inkişafında əvəzsiz rolu olub.**

# Keçmişin və bu günün güzgüsü, xalqın səsi



**Natiq QULUZADƏ,**
**YAP Zəngilan rayon təşkilatının sədri.**

Əsasən maarifçilik missiyasını üzərinə götürmüş "Əkinçi" qısa müddətdə həm ziyalı təbəqə, həm də sadə insanlar arasında çox məşhurlaşmışdı. Lakin bu qəzetin ömrü uzun sürmədi. Çar Rusiyası "Əkinçi"nin insanların maariflənməsində, ictimai-siyasi proseslərə daha yaxından bələd olmasındakı rolundan çəkinməyə başlayıb və sonda qəzetin nəşrini dayandırıb. Buna baxmayaraq, o dövrün görkəmli maarifçiləri "Əkinçi" qəzetinin səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ edərək ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər. 1875-ci ildən sonra çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərmişdir.

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsində milli mətbuatımızın rolunu yüksək qiymətləndirərək demişdir: "Milli mətbuatımızın inkişaf mərhələləri Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizə tarixinin tərkib hissəsidir. "Əkinçi"dən üzü bəri azadlıq, demokratiya, müstəqillik uğrunda mücadilə dərslərini biz milli mətbuatımızın səhifələrindən öyrənmişik". Bütün sahələrdə olduğu kimi, milli mətbuatımızın inkişafında da Ümummilli Lider Heydər Əliyevin müstəsna rolu olmuşdur. 1993-cü ildən başlayaraq Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən və həyatın bütün sahələrini əhatə edən köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran digər süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradılmış, onun problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunda rolunun yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər görülmüşdür. Onun bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində KİV-in inkişafında əldə olunmuş nailiyyətlər artıb çoxalmışdır. "Jurnalistlərin dostu" adını qazanmış Ulu Öndər ölkəmiz müharibə şəraitində yaşasa da böyük cəsarətlə əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə bütövlükdə KİV üzərində dövlət senzurasını ləğv etdi.

Azərbaycan mətbuatı qlobal informasiya şəbəkəsinin bir parçasıdır. Hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik inkişaf edir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib. Prezident İlham Əliyevin media haqqında qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində gördüyü işlər öz nəticəsini verir. Dövlət başçısının 2021-ci il 12 yanvar tarixli "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı ilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradıldı. MEDİA Agentliyi ölkəmizdə çap və onlayn medianın inkişafı, media orqanlarının maliyyə müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, mütərəqqi layihələrin davamlı dəstəklənməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirir. 30 dekabr 2021-ci ildə qəbul olunmuş Qanun isə media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir. Azərbaycan Konstitusiyasında söz və mətbuat azadlığının təməl prinsip olaraq əksini tapması ölkədə medianın azad və güclü bir cəmiyyət institutu kimi formalaşmasına təkan verib.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin bu ilin fevral ayında imzaladığı müvafiq Fərmana əsasən "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" yubiley medalı təsis edilib. Bu qərar birmənalı olaraq dövlətimizin mətbuat sahəsində çalışan insanların əməyinə verdiyi yüksək dəyərin növbəti göstəricisidir. ■